**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA İNTELLEKTUAL KAPİTALIN BAZAR İQTİSADİYYATININ İNNOVATİV İNKİŞAFINA TƏSİRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Məhin Xəqani qızı Şahsuvarlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üşün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Rəna Polad qızı Sultanova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Pəri Əmirəhməd qızı Həsənova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Teyyub Qəni oğlu Əliyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Sevda Ağababa qızı Bədəlova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə dissertasiya şurası.

Birgə Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, dosent
**Elşən Əli oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hazırda dünyada bir çox ölkələrin milli sərvətinin əksər hissəsini insan kapitalı və ölkənin iqtisadi artımında intellektual əmək böyük üstünlüyə malikdir. Belə ki, Azərbaycanda iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində insan kapitalının formalaşdırılması və səmərəli istifadəsi əsas hədəflərdən biridir və dövlət tərəfindən bütövlükdə dəstəklənir. Bu istiqamətdə bir sıra qanunlar, strategiya və dövlət proqramları qəbul olunmuşdur ki, onlardan "Məşğulluq haqqında" Qanun, "Təhsil haqqında" Qanun, "Elm haqqında" Qanun, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi", "Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli prioritetlər", "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezdentinin 2018-ci il 30 iyul tarixli Fərmanı ,"Müəlliflik hüququ və digər oxşar əqli mülkiyyət sahəsi üzrə Uzunmüddətli Milli Strategiya", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" kimi mühüm sənədləri göstərmək olar.

Müasir şəraitdə Azərbaycan Respublikasının sosial-iqtisadi təhlükəsizliyinin təmin olunmasında intellektual kapitaldan səmərəli istifadə ölkə iqtisadiyyatının innovativ inkişafının prioriteti kimi çıxış edir.

Qloballaşan dünyada iqtisadiyyatın bütün sahələrində bilik və informasiyaların rolunun artırılması bilavasitə intellektual həyatın dərinləşməsi ilə bağlıdır. Ölkənin intellektual potensialının səviyyəsinin müəyyən edilməsində, ilk növbədə, insan, struktur və istehlak potensialı çıxış edir.

Gələcəkdə bəşəriyyətin postsənaye mərhələsinə qədəm qoyması elm tutumlu, enerji resurslarına qənaət kimi xarakterizə olunur.

Məhsulun elm tutumluluğunun yüksəldilməsi isə yeni texnologiyalarının tətbiqini, məhsul keyfiyyətinin dünya standartlarına uyğun olmasını bilik, istedad, bacarıq və təcrübəni ön plana çəkir. Müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişafında lider kimi təhsil, elm, səhiyyə və mədəniyyət sahələrində yüksək nailiyyətlər əldə etmiş dövlətlər çıxış edir. Həmçinin Azərbaycan iqtisadiyyatının dayanıqlılığının təmin olunmasında və ölkənin bir çox sosial problemlərinin həllində intellektual kapitalın rolu əvəzsizdir.

Kapitalın geniş mənada mahiyyətini açıqlayan neoklassik nəzəriyyə məktəbinin nümayəndələri A.Marşall, F.Bem-Baverk, L.Valras, Y.Şumpeter və başqaları əsasən əvvəlki iqtisadi məktəblərin metodologiyalarına əsaslanırdılar. Sonralar neoklassik istiqamətdə Dj.B.Klark, İ.Fişer, Dj.Lyussi, A.Müller, K.Kniz, E.Lindalya, B.Roşer, Dj.Gelbreyt və başqaları öz əsərlərində kapitalın tədqiqini aparmışlar. Müasir dövrdə intellektual kapitalı tədqiq edən xarici alimlərdən Ch.Bouteilleri, L.Edvinssonu, A.Pankrukhini, R.Roslenderi, R.Finchamı, T.Stewartı və başqalarını qeyd etmək olar.

Azərbaycanda insan resursları, insan potensialı, təhsil, səhiyyə, mədəniyyət, innovasiyalar üzrə Azərbaycan alimləri tərəfindən tədqiqatlar aparılmış və onlardan Z.Ə.Səmədzadəni, R.S.Abdullayevanı, İ.H.Alıyevi, B.X.Ataşovu, Ə.Q.Əlirzayevi, G.A.Əzizovanı, E.A.Quliyevi, Ş.M.Muradovu, A.N.Muradovu, R.P.Sultanovanı və s. vurğulamaq olar.

Rusiya alimlərindən bu mövzu ilə bağlı V.I.Aleşin, V.P.Baqov, V.V.Belov, A.A.Bıkova, A.L.Qaponenko, İ.İ.İqnatov, B.B.Leontyev və digərləri tədqiqat aparmışlar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi Azərbaycan Respublikasının əqli mülkiyyəti və insan kapitalı sahələri çıxış edir. Tədqiqatın predmetini intellektual kapitalın innovasiyalı iqtisadiyyatın inkişafına təsir göstərən baza amillər və iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi - Azərbaycanda intellektual kapitalın səmərəliliyinin artırılması və innovasiyalı iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsidir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- nəzəri baxımdan intellektual kapitalın mahiyyətinin və strukturunun araşdırılması;
- intellektual kapitalın tədqiqində beynəlxalq təcrübənin öyrənilməsi;
- Azərbaycanda intellektual kapitalın inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi;
- innovasiyalı iqtisadiyyatın formalaşması qanunauyğunluqlarının tədqiq edilməsi;
- intellektual kapitalın ölkənin sosial-iqtisadi inkişafına təsirinin araşdırılması;
- Azərbaycanda intellektual kapitalın innovasiyalı iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsi;
- ölkənin intellektual kapitalının qiymətləndirmə metodlarının tətbiqi;
- intellektual kapitala təsir edən amillərin əsaslandırılması;
- bilik tutumlu intellektual kapitalın ölkənin iqtisadi artımına təsirinin qiymətləndirilməsi.

**Tədqiqat metodları.** Dissertasiya işində kompleks və sistemli təhlil, müqayisəli iqtisadi təhlil və proqnozlaşdırma, iqtisadi-riyazi, sintez-analiz və statistik qruplaşdırma metodlarından istifadə edilmişdir.

Dissertasiya işinin informasiya bazasını klassiklərin iqtisadi nəzəriyyələri, dünya və yerli alimlərin ölkədə intellektual kapitalın formalaşması və inkişafına dair tədqiqatları, tədqiqatın mövzusuna uyğun olaraq respublika hökumətinin qəbul etdiyi müxtəlif normativ-hüquqi aktlar, Azərbaycan Respublikası Prezidentinin mövzu ilə bağlı müvafiq fərman və sərəncamları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Dövlət Statistika Komitəsinin materialları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat mövzusuna uyğun olaraq müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- intellektual kapitalın nəzəri-metodoloji əsaslarının tədqiq edilməsi və onun Azərbaycanda inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi mühüm şərtlərdən biridir;
- intellektual kapitalın ölkənin sosial-iqtisadi inkişafına təsirinin və ölkədə innovasiyalı iqtisadiyyatın formalaşma imkanlarının araşdırılması daim diqqət mərkəzində olmalıdır;
- müasir dövrdə Azərbaycanda intellektual kapitalın innovasiyalı

iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsinə xüsusi diqqət yetirilməlidir;

- ölkənin intellektual kapitalının qiymətləndirmə metodlarından və ona təsir edən amillərin ekonometrik qiymətləndirilməsi üsullarından daha səmərəli istifadə olunmalıdır;
- Azərbaycanda bilik tutumlu intellektual kapitalın iqtisadi artıma təsirinin ekonometrik qiymətləndirilməsinə daimi ehtiyac vardır;
- Azərbaycan iqtisadiyyatının dayanıqlığının təmin olunmasında intellektual kapitalın rolu əvəzsizdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin yerinə yetirilməsində aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- intellektual kapitalın iqtisadi mahiyyətinin və strukturunun nəzəri-metodoloji əsasları tədqiq edilmişdir;
- intellektual kapitalın tədqiqində beynəlxalq təcrübədən istifadə imkanları təklif edilmişdir;
- Azərbaycanda intellektual kapitalın inkişaf xüsusiyyətləri araşdırılmışdır;
- ölkədə innovasiyalı iqtisadiyyatı xarakterizə edən göstəricilər sisteminə yeni yanaşma verilmişdir;
- intellektual kapitalın innovasiyalı iqtisadiyyatın inkişafına təsiri qiymətləndirilmişdir;
- intellektual kapitala təsir edən amillər müəyyənləşdirilmiş və sistemləşdirilmişdir;
- bilik tutumlu intellektual kapitalın ölkənin iqtisadi artımına təsiri ekonometrik metodla araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri hissəsində verilən materiallar və metodiki müddəalar ölkədə intellektual kapitaldan səmərəli istifadə etməyə imkan yaradacaq. Bu da öz növbəsində, innovasiyalı iqtisadiyyatın formalaşmasına və inkişafına öz təsirini göstərəcək. Dissertasiyada intellektual kapitalın ölkə iqtisadiyyatının innovativ inkişafına təsiri ilə bağlı nəticə və təkliflər verilmişdir.

Tədqiqatda irəli sürülmüş tövsiyyələr və təkliflər müvafiq konsepsiya, proqram, layihə və digər sənədlərin hazırlanmasında istifadə edilə bilər. Tədqiqat işinin əsas müddəaları iqtisad yönümlü ali məktəblərdə uyğun ixtisas üzrə, əsasən də ümumi iqtisadiyyat

ixtisası üzrə tədris oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu iddiaçının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfrans materiallarında dərc olunmuş 5 məqalə (1-i xaricdə olmaqla) və 4 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlərin sırasında "İntellektual kapitalın qiymətləndirilmə metodları" (Naxçıvan, 2020), "İntellektual kapitalın innovativ inkişafda əhəmiyyəti" (Bakı, 2020), "İntellektual kapitala təsir edən amillərin qiymətləndirilməsi" (Bakı, 2021), "Assessing the impact of intellectual capital on economic growth" (Bulgaria, 2022) adlı konfrans materiallarını göstərmək olar.

Bundan əlavə, iddiaçının "İntellektual kapitalın tədqiqinin əhəmiyyəti" (Bakı, 2018), "Müasir dövrdə intelektual kapitala baxışlar və inkişaf xüsusiyyətləri" (Bakı, 2019), "İntellektual kapitalın inkişafı xarici ölkələrin təcrübəsində" (Bakı, 2019), "Education, health and cultural capital as main components of intellectual capital" (Poland, 2022), "İntellektual kapital sosial-iqtisadi inkişafın əsas prioriteti kimi" (Bakı, 2023) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin struktur tərkibi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (8975 işarə), I fəsil (78695 işarə), II fəsil (79242 işarə), III fəsil (30787 işarə), nəticə (7871 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (12526 işarə) üzrə ümumi həcm 253258 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, diaqramlar, şəkillər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 205570-dir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları verilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası göstərilmişdir.

Dissertasiya işinin **“Bazar iqtisadiyyatı şəraitində intellektual kapitalın tədqiqinin nəzəri-metodoloji əsasları”** adlanan birinci fəslində intellektual kapitalın tədqiqinin mahiyyəti və strukturu göstərilmiş, intellektual kapitalın öyrənilməsinin dünya təcrübəsi verilmiş və Azərbaycanda intellektual kapitalın inkişaf xüsusiyyətləri müəyyən edilmişdir.

Müasir dövrdə iqtisadiyyatın dayanıqlı inkişafı, ilk növbədə, insanların dünya görüşü, bilik, təhsil səviyyəsi və s. ilə bağlıdır. Hazırda biliklərə əsaslanan innovasiyalı iqtisadiyyat elmi-texniki tərəqqinin inkişafına, innovasiyaların tətbiqinə, biliklərin yaranmasına yönəldilməsi aşağıdakı kimi göstərilməlidir:

- təhsilin inkişafına, əsasən də biliklərin əldə edilməsinə və keyfiyyətli istifadəsinə;
- əqli mülkiyyət sahəsinin formalaşdırılmasına, əqli mülkiyyətə çevrilmiş biliklərin qorunmasına;
- idarəetmə sistemlərinin təkmilləşdirilməsinə;
- bilik və informasiya kommunikasiyasının yayılmasına əsaslanmalıdır.

İntellektual kapitalın mahiyyətini açıqlayaraq, buraya biliklər, əqli mülkiyyət, təcrübə, innovasiya mədəniyyəti, informasiya-kommunikasiya texnologiyaları, idarəetmə sistemləri, bacarıq, qabiliyyət, peşəkarlıq səviyyəsi və s. daxil edilir.

İntellektual kapitalın yaranma mərhələlərinə nəzər salaraq aşağıdakıları qeyd etmək olar:

- informasiyanın biliklərə çevrilməsi;
- cəmiyyətdə insanların bilik daşıyıcısı kimi, mütəmadi informasiyaları alaraq və onları biliyə çevirərək gəlir əldə etməyə müvafiq olurlar.

İntellektual kapitalın strukturuna toxunaraq o fərdi kapitala və sosial kapitala bölünür. Fərdi kapitala fərdi biliklər, əldə olunmuş nailiyyətlər, nou-xau, təhsil, təcrübə, qabiliyyət, mədəniyyət və s. daxildir. Sosial kapitala isə koqnitiv və struktur kapitalları daxildir. Koqnitiv kapital qanunları, normativ-hüquqi aktları, təlimatları, iqtisadi sistemdə informasiyaları özündə əks etdirir və korporativ biliklərə əsaslanır. Struktur kapitalı tədqiqatların nəticələrini, idarəetmə sistemlərini, texnologiyaları, informasiya-kommunikasiya texnologiyaları sistemini,

biliklərin yeniləşdirmə metodlarını cəmləşdirir.

Hazırda intellektual kapitalın ümumi qiymətləndirilməsində üç əsas göstərici götürülür ki, onlar da intellektual kapitalın, aksioner kapitalın və maddi aktivlərin qiymət göstəriciləridir.

Onu da qeyd etmək lazımdır ki, iqtisadi artım və texnoloji nailiyyətlər klassik modellərdə öz əksini tapır. Davamlı iqtisadi artım Solou modeli (biliklərin nəzərə alınması) əsasında müəyyən olunur. Belə ki, davamlı iqtisadi artıma kapital, əmək bilikləri daxildir.

Davamlı iqtisadi artımla bağlı digər model - Romer və Lukas modeli adlanır ki, bu da insan kapitalının nəzərə alınmasıdır. Bu modelə əsasən davamlı iqtisadi artıma - kapital, əmək, biliklər və insan kapitalı aiddir.




**Şəkil 1. Davamlı iqtisadi artım: Solou modeli (biliklərin nəzərə alınması)**
*Mənbə: Арджирис, К. Организационное научение. М.: ИНФРА-М, 2004.-s.9.*

Bu model əsasında insan kapitalı dedikdə, texnoloji biliklərin əmək qabiliyyətinə çevrilməsi başa düşülür. İqtisadiyyatda hökumət siyasətinin rolu əsasən fiskal, monetar qanunlar əsasında müəyyənləşir. Burada hökumətin iqtisadi siyasətində aşağıdakı amillərin dəyərləndirilməsi əsas götürülür:

- siyasi sabitlik və qanuniliyin dəstəklənməsi;
- fiskal və monetar siyasət;
- investisiya mühiti;
- əqli mülkiyyətin qorunması.

Qeyd etmək lazımdır ki, intellektual ehtiyatların artımına ölkədə diqqətin gücləndirilməsi aparılan uğurlu inkişaf strategiyasının tərkib hissəsi kimi çıxış edir. Belə ki, ölkənin inkişafı, onun potensialının artımı məhz elmin inkişafı ilə müəyyən edilir. İnnovasiyalara olan kəskin tələbat hələ də qalmaqdadır və bu ictimai yeniləşmə

zərurətindən qaynaqlanaraq çoxşaxəlidir. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq vurğulamaq lazımdır ki, innovasiyalara tələbat o zaman və o yerdə etibarlı ödənilir ki, həmin cəmiyyətdə mənəvi çevriliş baş verir, bütövlükdə, iqtisadiyyat elmi biliklərə, intellektual elmi resurslara əsaslanır. Məhz intellektual kapitalın əsasını elmi biliklər təşkil edir. Yalnız elmi sərvətlərə, intellektual kapitala arxalanmaqla ölkələr öz təkamülünü reallaşdırmışdır – ibtidai dövrdən industrial və postindustrial dövrlərə sıçrayış etmişdir.

Bu da öz, növbəsində, cəmiyyətin inkişaf etdirilməsi, insanların yüksək şüura və mədəniyyət səviyyəsinə çatması deməkdir.

Qeyd etmək lazımdır ki, XXI əsrdə dünya iqtisadiyyatında ölkələrin iqtisadi inkişafının rəqabətqabiliyyətinin artırılmasında intellektual mülkiyyətin rolu daha da artır. İntellektual kapitalın inkişafının təkamül tarixi orta əsrlərdən başlayaraq indiyə qədər inkişaf etməkdədir ki, bu da hazırda əmək, iş fəaliyyəti sənaye müəssisələrində deyil, elmi-tədqiqat təşkilatlarında yaranmaqdadır. Hazırda ölkədə sənaye mülkiyyəti obyektlərinin (SMO), özünəməxsus ixtiraları, ilk növbədə, bu sahəyə kapital qoyuluşlarının həyata keçirilməsi ilə bağlıdır. Yaranmış yeni məhsul əsasən uzunmüddətli olmalı və lazımi maliyyə xərcləri ilə elmi-tədqiqat müəssisələrində və yaxud elmi-təşkilatlarda tədqiqat və elmi-konstruktor işlərinin yerinə yetirilməsi ilə bilavasitə yaradılır.

Müasir şəraitdə intellektual mülkiyyət daha çox əmtəə və xidmətlərin əldə olunmasında iqtisadiyyatın inkişafının əsas indiqatorlarından biri kimi hesab olunur. O, elmi-texnoloji və insan kapitalının inkişafının əsas göstəricisi kimi, cəmiyyətin inkişafına da öz təsirini göstərməkdədir. Bir çox ölkələrin qanunvericilik sənədlərində intellektual mülkiyyət müxtəlif ifadələrini tapsa da, onları aşağıdakı istiqamətdə təsnifləşdirilməsi zəruridir:

- intellektual mülkiyyət qeyri-maddi aktiv kimi qəbul olunaraq əşyaya münasibətdə bir mülkiyyət kimi fərqlənir;
- əqli mülkiyyət mütləq hesab olunur;
- maddi obyektlərdə qeyri-maddi əqli mülkiyyət obyektləri təzahür olunur;
- intellektual mülkiyyət qanunla tənzimlənir və qorunur;

İntellektual mülkiyyət innovasiya fəaliyyəti ilə bilavasitə bağlıdır ki, bu da onun inkişafına öz müsbət təsirini göstərir. İnnovativ fəallığın dünya ölkələrində bir istiqamət kimi, ana xəttini təşkil edən innovasiya fəaliyyətinin diqqət mərkəzində olması aydın görünür və bu yanaşma aşağıdakı kimi təqdim olunur:

- ✓ innovasiya fəaliyyətinin inkişafında güclü dövlət dəstəyinin olması;
- ✓ bu sahədə hüquqi-normativ bazanın olması, təşkili və tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi;
- ✓ infrastruktur şəbəkəsinin müasirləşdirilməsi, dünya standartlarına cavab verməsi və nəzarətin buna yönəldilməsi;
- ✓ sisteminin yaranması ilə başa çatır;
- ✓ özəl – elm - təhsil - dövlət müəssisələri arasında əlverişli kordinasiya[1]

Əsasən də, intellektual mülkiyyətin inkişafı baxımdan mühüm olan innovasiya fəaliyyətindən asılı olaraq müvafiq şəraitin təşkili bir aspekt olaraq qəbul olunur. Belə ki, Amerika Birləşmiş Ştatları, Qərbi Avropa, Yaponiya və s. dünya dövlətləri, innovativ texnika və texnologiyaların mənimsənilməsini həyata keçirərək təsərrüfat subyektlərinin tələblərinə uyğun olaraq yerli və xarici bazarlara çıxışını təmin edərək bu istiqamətdə öz mövqelərini gücləndirərək nailiyyətlər əldə etməyə çalışırlar və bu yolda fəaliyyətlərini davam etdirirlər. Hazırda bir sıra dövlətlər isə öz innovasiya fəaliyyətlərini təkmilləşdirilmiş formada təşkil edirlər, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin restrukturizasiyasını, beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə nail olmağa çalışırlar. İnnovasiya fəaliyyətinin iqtisadiyyata təsiri çox genişdir və onun tətbiqinin ölçmək dairəsi mürəkkəbdir. İnnovasiya fəaliyyətində intellektual kapitalın rolu böyükdür və onun təsir nöqtələrini aşağıdakı kimi göstərmək olar:

- ➢ tətbiq olunan innovasiyalar məhsulun keyfiyyətinə təsiredici gücə malikdir ki, bu da yeni və ya təkmilləşdirilmiş məhsulların əldə olunmasına imkan yaradır və insan tələbatının daha da ödənilməsi bacarığına malikdir;

---

[1] Şahsuvarlı M.X. - Müasir dövrdə intellektual kapitala baxışlar və inkişaf xüsusiyyətləri // AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası. Bakı: - 2019, -№5. - s.21-22..

- insanın tələbatına təsiri nəzərə çarpacaq səviyyədə özünü göstərir və bu onun təsirinin son məntəqəsi hesab olunur;
- innovasiya fəaliyyəti intellektual mülkiyyətə əsaslanaraq iqtisadi artıma təsiredici qüvvəyə malikdir. Hazırki dövrdə insanlar dünyanın ayrı-ayrı yerlərində İnternet-mağaza vasitəsilə lazım olan məhsulu əldə edirlər və beləliklə, öz tələbatlarını ödəyirlər;
- yüksək ixtisaslı və peşəkar mütəxəssislərin hazırlanması və sayının artması vacibdir.

Son illərdə Azərbaycanda elmi-tədqiqatların səviyyəsi yenilənmiş müasir texnologiyaların tətbiqində intellektual mülkiyyətin rolu artmış və beləliklə, rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına öz təsirini göstərmişdir. Belə ki, ölkədə rəqabətqabiliyyətli insan kapitalı müasir innovasiyaların daşıyıcısı kimi çıxış edir ki, burada da biliklərin və bacarığın rəqəmsal iqtisadiyyata uyğun inkişaf etdirilməsi müşahidə olunur. Müasir çağırışlara cavab olaraq innovasiyalara əsaslanan intellektual mülkiyyətin inkişafı və intellektual fəaliyyətin nəticələrinin bütün sahələrdə istifadəsi labüddür ki, buna da dövlətin əsas diqqəti bu istiqamətə yönəldilib. İntellektual mülkiyyətin qeydiyyat hüquqlarının beynəlxalq səviyyədə stimullaşdırılması, patentlərin səmərəli qeydiyyatının aparılması və intellektual mülkiyyətlə bağlı işlərinin iqtisadi siyasətə yönəldilməsi vacib hesab olunur.

Qeyd etmək lazımdır ki, müasir dünyada insan kapitalı və intellekt mühim əhəmiyyətə malikdir. Məhz, bunun nəticəsində hər bir ölkənin yüksəlişi və maddi rifahı elm və innovasiyaların inkişafı hesabına əldə olunur.

Ölkə Prezidenti tərəfindən irəli sürülən qara qızılı insan kapitalına çevirək şüarı kreativliyin böyük dəstəyi kimi çıxış edir və yaradıcılığın inkişafına, yeniliyin əldə olunmasına geniş vüsat verir.

İntellektual mülkiyyət öz növbəsində intellektual fəaliyyəti stimullaşdırır, investisiyaların yaradıcılığa və yeniliyə cəlb olunmasına şərait yaradır, ümumilikdə isə intellektual məhsulun istifadəsinə imkan verir. Onu da qeyd etmək lazımdır ki, intellektual mülkiyyət müxtəlif dəyərlərin yaranmasında iştirak edir və informasiya cəmiyyətinin yaranmasını sürətləndirir.

Müasir dövrdə intellektual mülkiyyət biliklərə əsaslanaraq, özündə

intellektual kapitalı cəmləşdirərək əsas aparıcı qüvvəyə malikdir.

Hazırki şəraitdə biliklərə əsaslanan yeni informasiya cəmiyyətinin tələblərindən irəli gələrək milli qanunverciliyin təkmilləşdirilməsini önəmli hesab edir.

Dövlətin strateji planına uyğun olaraq cəmiyyətdə müvafiq şəraitin yaradılması yaradıcı, yeniliyi qəbul edən insanlar, biznesmenlər arasında maddi və qeyri-maddi dəyərlərin əldə olunması ilə bağlı uğur qazanmaq məqsədi ilə sağlam rəqabətin aparılması intellektual mülkiyyətin mədəniyyətinin formalaşması müşahidə olunur.

Məhz intellektual mülkiyyət sahəsində islahatların aparılması mövcud qanunvericiliyin yenilənməsinə və normativ-hüquqi bazanın təkmilləşdirilməsinə təkan verir.

Yaxın gələcəkdə Azərbaycanda intellektual mülkiyyətin müasir sistemlərinin yaradılması nəzərdə tutulub ki, burada da dünya təcrübəsindən yararlanaraq biliklərə əsaslanaraq kreativ iqtisadiyyatın formalaşması həyata keçirilir.

Son illərdə ölkədə piratlığa qarşı mübarizə güclənib ki, bu istiqamətdə də yeni qanunun qəbul olunması nəzərdə tutulur. Agentlik tərəfindən ardıcıllıqla aparılan işlər nəticəsində intellektual mülkiyyətin müəlliflik hüququnun qorunması istiqamətində addımlar atılmışdır.

Standartlaşma Metrologiya və Patent Dövlət Komitəsi tərəfindən sənaye mülkiyyəti yaranmasına aid strategiya tərtib olunmuş və hal-hazırda intellektual mülkiyyətin bu mülkiyyətlə birləşməsi istiqamətində işlərin aparılması müşahidə olunur.

Beynəlxalq tələblərə uyğun olaraq intellektual mülkiyyətin hüquqlarının idarəedilməsində avtomatlaşdırma sistemlərinin tətbiqi zəruridir.

Dövlətin milli maraqlarına və iqtisadi prioritetlərinə əsaslanaraq, dünya təcrübəsini nəzərə alaraq bu istiqamətdə təhlilin aparılması və proqnozlaşdırılması labüddür. Son zamanlarda Azərbaycan Respublikasında sosial və iqtisadi problemlərin həlli istiqamətində bir sıra irəliləyişlər olmuşdur ki, bu da, bütövlükdə, ölkə əhalisinin maddi rifahının yaxşılaşdırılmasında mühim rol oynamışdır. Bu isə, əhalinin maddi və mədəni rifahında müsbət meyllərin olması intellektual kapitalın yüksək səviyyədə inkişaf etdirilməsi üçün əhəmiyyətli hesab olunur.

Ölkədə intellektual kapitalın inkişafının təmin olunması, ilk növbədə, diqqətin artırılmasını tələb edir və bu əsas məsələlərdən biri kimi çıxış edir. Xüsusilə də, elmi-tədqiqat institutlarında o, cümlədən də özəl təşkilatlarda intellektual kapitalın inkişafına mövcud baxışlar dəyişilməlidir. Bu təşkilatlarda çalışan heyətin və əməkdaşlarının intellektual fəaliyyəti sahəsində motivasiyası ilə marağın təmin edilməsi mexanizminin tətbiqi vacibdir. Belə ki, bu elmi müəssisələrdə çalışan heyətin biliklərinin intellektual mülkiyyətin yaradılmasına yönəldilməsi və biliyin son məhsula (xidmət) uyğunlaşdırılması əsasdır və buna əlverişli şəraitin olması mütləqdir. Hazırda innovativ intellektual fəaliyyətin maliyyələşdirilməsi istiqamətində məqsədli proqramların tərtib olunması, bu prosesdə isə sağlam rəqabət, səmərəlilik, bilik və təcrübənin mütamadi olaraq təkmilləşdirilməsinin həyata keçirilməsi zəruridir.

**"Azərbaycanda intellektual kapitalın bazar iqtisadiyyatının innovativ inkişafına təsirinin öyrənilməsi"** adlanan ikinci fəsildə ölkədə innovasiyalı iqtisadiyyatın formalaşma imkanları göstərilmiş, intellektual kapitalın ölkənin sosial-iqtisadi inkişafına təsiri tədqiq edilmiş və Azərbaycanda intellektual kapitalın innovasiyalı iqtisadiyyatının inkişafına təsirinin qiymətləndirilməsi verilmişdir.

İnnovasiyalı iqtisadiyyatın mahiyyətini tədqiq edərək qeyd etmək lazımdır ki, bu iqtisadiyyat intellektual kapital istehsal sisteminin, müəssisə ilə firmaların, şirkətlərin dəyərinin əsas hissəsini özündə cəmləşdirir və elmi biliklərə əsaslanır.

Bu günləri inkişaf etmiş ölkələrdə aparılan elmi-texniki siyasəti təhlil edərkən görmək olar ki, burada elm, istehsal və sosial həyatla qarşılıqlı əlaqə çox güclüdür, eyni zamanda bu yeni tip iqtisadiyyatın mahiyyətini göstərir ki, bu da innovasiyalı iqtisadiyyatdır, hansı ki, XX əsrin 80-ci illərinin sonunda yaranmışdır.

Yaxın gələcəkdə dünyada gedən proseslər hər bir ölkədə innovasiyalı iqtisadiyyatının quruculuğunda rəqabətin artması ilə müşahidə olunur və bu istiqamətdə ölkənin əsas prioriteti kimi, yüksək rəqabətqabiliyyətli insan potensialının yaranmasıdır.[2]

Şirkətlərin intellektual potensialının strukturuna nəzər salaraq,

[2] Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli prioritetlər

burada elmi-tədqiqat işlərinə, konstruktor araşdırmalarına, insan resurslarına kapital qoyuluşlarının həyata keçirilməsi, nou-xau, korporativ mədəniyyətin və s. kimi olması əsasdır. Belə ki, intellektual kapital və intellektual istehsala diqqət mütəmadi olaraq artırılır (bax şəkil 2-yə).




**Şəkil 2. Əqli mülkiyyətin və innovasiyalı iqtisadiyyatın qarşılıqlı təsiri**
*Mənbə:[kayzen.az /blog / iqtisadçı/8157]*

Onu da vurğulamaq lazımdır ki, fundamental tədqiqatlar öz mənbəyini məhz istehsalatda olan texnologiyalardan, həmçinin, hazır məhsullardan götürür və burada dövlət bir sifarişçi kimi çıxış edir. Bunun bariz nümunəsi kimi, Sumqayıt Texnologiyalar Parkını misal göstərmək olar ki, burada da rəqabətqabiliyyətli, dünya standartlarına cavab verən məhsul istehsalının təşkili həyata keçirilir.

Hazırda intellektual resurs iqtisadiyyatın bütün sahələrində bir vasitə olaraq onun səmərəli istifadəsi əsas götürülməlidir.

Azərbaycanda innovativ iqtisadiyyatın yaradılmasında elm və istehsalat arasında sıx əlaqənin qurulması, tətbiqi elmi araşdırmaların bazarın tələbatına uyğun aparılması zəruri hesab olunur.

Müasir dövrdə innovasiya fəallığının artırılması rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması üçün zəmin yaradır və innovasiya potensialından səmərəli istifadə dövlət dəstəyini gücləndirəcək, eyni zamanda müvafiq qanunvericilik bazasının yaradılmasına şərait yaradacaq.

Tədqiqat göstərir ki, zəif inkişaf etmiş ölkələrdə sosial-iqtisadi inkişafdan geri qalmanın əsas səbəbi insan kapitalı keyfiyyətinin aşağı olmasıdır.

Ölkədə innovasiya sahibkarlığının inkişaf etdirilməsi onun yeni fəaliyyət növlərinin inkişafına əlverişli mühitin yaradılması, texnoparkların və innovasiya zonalarının inkişafını məqsədəuyğun edir. Beləliklə, innovativ sahibkarlığın biliklərə əsaslanan iqtisadiyyatın inkişafının təmin edilməsi zəruridir və bu istiqamətdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı vacibdir.

Dövlətin apardığı sosial siyasət, ilk növbədə, ictimaiyyət tərəfindən dəstəklənməsi, normativ-hüquqi aktlara əsaslanması, dövlət tərəfindən götürülən sosial öhdəliklərin icrası, nəzarətin təşkili və s. kimi işlərin həyata keçirilməsi labüddür. Ölkədə aparılan sosial siyasət sosial rifahın yüksəldilməsinə və sosial təminat sisteminin möhkəmlənməsinə yönəldilməlidir. Belə ki, dövlət sosial təminat sisteminin bir qarantı kimi, çıxış edir və öz əhalisinə sosial qayğı göstərərək onun sosial müdafiəsini həyata keçirir. Ayrı-ayrı əhali qruplarına imtiyazların verilməsi, güzəşt və maddi yardımların ödənilməsi sosial müdafiənin əsasını təşkil edir.

Hazırda dövlət gəlirlərin ilkin bölgüsünü vergi və sosial ayırmalar hesabına tənzimləyir. Onu da qeyd etmək lazımdır ki, gəlirlərin tənzimlənməsi dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi hesab olunur və onun məqsədi əhalinin ayrı-ayrı qrup ilə təbəqələri arasında ziddiyyətlərin götürülməsi, beləliklə, də orta təbəqənin yaranması deməkdir. Bu baxımdan dövlət əvvəlcədən yarana bilən iqtisadi - sosial zərəri minimuma çatdırmağa çalışmalı və ümumilikdə, sosial

vəziyyəti nəzərə almalıdır. Vurğulamaq lazımdır ki, əhalinin insan kapitalına investisiya qoyuluşları həyata keçirməsi onların gəlirləri ilə bağlıdır. Əgər əhalinin gəlir səviyyəsi yüksəkdirsə, onlar təhsilə, səhiyyəyə və mədəniyyətə daha çox vəsait ayırırlar ki, bu da onların uzunmüddətli perspektivdə yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına öz təsirini göstərir (bax cədvəl 1-ə).

**Cədvəl 1**

**Azərbaycan Respublikasında 2010-2022-ci illər üzrə əhalinin nominal və real gəlirləri**

| | 2010 | 2015 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Əhalinin nominal gəlirləri, milyon manat | 25607,0 | 41744,8 | 56769,0 | 55754,1 | 55206,8 | 68914,6 |
| Əhalinin sərəncamında qalan nominal gəlirləri, milyon manat | 23405,0 | 38200,0 | 52188,3 | 50689,6 | 51248,1 | 61897,7 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 331,5 | 466,9 | 635,1 | 707,7 | 732,1 | 840,0 |
| Əhalinin sərəncamında qalan real gəlirləri, milyon manat* | 22142,9 | 36730,8 | 50865,8 | 49308,9 | 48030,1 | 54343,9 |

***Mənbə:*** *cədvəl müəllif tərəfindən ADSK-nın müvafiq illər üzrə göstəriciləri əsasında tərtib edilmişdir.*

Cədvəl 1-dən göründüyü kimi, Azərbaycan Respublikasında 2010-2022-ci illərdə əhalinin nominal və real gəlirləri 2,2 dəfə artmışdır.[3]

Beləliklə, əhalinin xidmət xərclərinin (təhsil, səhiyyə, mədəniyyət, istirahət və s.) yüksəldilməsi ölkədə intellektual potensialın və insan kapitalının formalaşdırılması ilə həyat səviyyəsinin yüksəldilməsində mühüm yer tutur. Lakin tədqiqat göstərir ki, qeyd olunan sahələrdə ölkəmizdə xidmət səviyyəsi elə də qənaətbəxş hesab olunmur, bu da öz növbəsində, həyat keyfiyyətinin yaxşılaşdırılmasına öz mənfi təsirini göstərir.

Son illərdə Azərbaycanda islahatların aparılması insan kapitalının

---

[3] www.stat.gov.az

formalaşması və onun ölkə iqtisadiyyatında rolunun artırılması istiqamətində işlər davam etdirilir. Bu, ilk növbədə, təhsil sistemində keyfiyyətin yüksəldilməsinin təmin edilməsi və bu sahəyə investisiya qoyuluşlarının artırılması ilə bağlıdır. Hazırda bu istiqamətdə dövlət proqramları və konsepsiyalar qəbul olunmuşdur ki, onlardan Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası və Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını göstərmək olar. Müasir dövrdə ölkədə elm, təhsil, səhiyyə, mədəniyyət və digər sosial sahələrin informasiya-komunikasiya texnologiyaları vasitəsi ilə inkişaf etdirilməsi labüd hesab olunur. Belə ki, hazırda texnoloji innovasiya sahələrinin formalaşması və onların səmərəli idarə olunması vacibdir. İdarəetmə proseslərində isə informasiya sistemlərinin tətbiqi, bütövlükdə, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə təkan verəcək. Qeyd etmək lazımdır ki, sənaye inqilabı göstəricilərinin istifadəsi, ümumilikdə, ölkə iqtisadiyyatının diversifikasiyasında və qlobal elektron cəmiyyətin təchizatında bir innovasiya potensialı nümunəsi olaraq istifadə olunacaq.

Hazırda Azərbaycanda innovativ iqtisadiyyatın qurulması elm, təhsil, mədəniyyət və s. sahələrin inkişaf etdirilməsi dünya iqtisadiyyatına inteqrasiyanın sürətlənməsinə təkan verəcək. Məhz buna görə dünya elm və informasiya cəmiyyətinə inteqrasiya Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsas hədəflərindən biridir. Belə ki, innovativ cəmiyyət insan resurslarına və intellektual kapitala söykənir ki, bu da onun hərəkətedici qüvvəsidir.

Qeyd etmək lazımdır ki, intellektual kapitalın istehsala dərindən təsir etməsi onun xarakterini dəyişir və səmərəliliyinin yüksəldilməsini təmin edir. İntellektual kapitalın əsasını informasiya ilə biliklər təşkil edir ki, bu da tədricən inkişaf edərək, ictimai istehsalın əsas vasitəsinə və subyektinə çevrilir. İnnovativ iqtisadiyyat yalnız bilik cəmiyyətində mövcud olar və inkişaf edə bilər ki, burada biliklərin əldə edilməsi, istifadəsi təkcə iqtisadi məqsədəuyğunluq mülahizələri ilə deyil, həm də müxtəlif formalarda biliyin insanların gündəlik həyatına daxil olması ilə müəyyən edilir. İnformasiya və cəmiyyət insanın fəaliyyət göstərdiyi mühitdir. İnsan informasiya mühitinin cəmiyyətlə yaradıcı təşkilati və birləşdirici elementidir.

Həm informasiya, həm də sosial mühit yalnız özünəməxsus funksiyasını yerinə yetirir.

Belə ki, Azərbaycanda innovasiyaların idarə olunması mexanizminin təkmilləşdirilməsi istiqamətində milli innovativ mərkəzlərin yaranması həyata keçirilir. Misal olaraq “Muğan” Milli innovativ mərkəzi qeyd etmək olar. Bu mərkəz əsas təşkilatlardan biri olaraq ölkədə innovativ sahibkarlığın inkişafını təmin edir.Onun yaradılması ölkədə innovativ lahiyələrin tətbiqi ilə bağlı olmuşdur ki, bu da startaplara dəstək kimi çıxış edir.

Vurğulamaq lazımdır ki, “Muğan” Milli innovativ mərkəzi müasir avadanlıqlarla təchiz olunmuş və onun əsas məqsədi müvafiq resurslara çıxışın təmin olunmasıdır ki, bu da innovativ şirkətlərə və startaplara inkişaf etmək üçün zəmin yaradır. Bu “Muğan” Milli innovativ mərkəz təhsil proqramlarını həyata keçirərək sahibkarlıq sahəsində kadrların ixtisaslarının yüksəldilməsinə və təcrübə əldə olunmasına imkan yaradır ki, burada da mütamadi olaraq seminarlar həyata keçirilir və startaplar idarəetmənin yeni metodlarının mənimsənilməsi müşahidə olunur. Bütün bunlar onların uğurlu biznes aparılması üçün əsas şərt hesab olunur.

Qeyd etmək lazımdır ki, “Muğan” Milli innovativ mərkəz vençur firmaları, ayrı-ayrı fondlar və dövlət təşkilatları ilə əməkdaşlıq edərək öz innovativ ideyalarını iqtisadiyyatda tətbiq etməyə çalışır. O, investisiyaların cəlb olunması istiqamətində sahibkarlar arasında məsləhətləşmələr apararaq, startaplara biznes planlarının tərtib olunmasına köməklik göstərir. Sonda bu biznes-planlar müvafiq investorlara təqdim olunur.

Beləliklə, “Muğan” Milli innovativ mərkəzi ölkənin sahibkarlıq fəaliyyətində əlverişli mühitin yaranmasına və iqtisadiyyatın ayrı-ayrı sahələrinə innovasiyaların tətbiqini həyata keçirir.

Müasir şəraitdə innovasiyaların inkişafı, ilk növbədə, yüksək ixtisaslı kadrlara əsaslanmalıdır ki, bunun da idarə edilməsində monitorinqin keçirilməsi vacibdir. Belə ki, monitorinqin nəticələrinə əsaslanaraq çatışmazlıqları aşkar etmək və vaxtında onların aradan qaldırılmasının təmin edilməsi labüddür.

Hazırki şəraitdə startapların inkişafının stimullaşdırılması baxımından Azərbaycanda yüksək ixtisaslı inkubatorların yaranması həyata

keçirilir. Buna misal olaraq "Barama İnnovation and Entrepreneurship Center" innovasiya mərkəzini qeyd etmək olar ki, o da biznes ideyaların ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində həyata keçirilməsində startaplara dəstək olur.

Onu da qeyd etmək lazımdır ki, ölkədə innovasiyaların tətbiqi sahəsində ən aparıcı sektorlardan biri informasiya-komunikasiya texnologiyaları hesab olunur. Buna misal olaraq "Softline Azerbaijan" şirkətini göstərmək olar ki, onunda ixtisaslaşmasını əsasən proqram təminatı və rəqəmsal marketinq təşkil edir.

Belə ki, 2022-ci ildə ölkəmiz startap eko sistemlərinin qlobal reytinqində 85-ci yeri tutmuşdur. Bu da Azərbaycanın son illərdə informasiya komunikasiya texnologiyaları sahəsinin surətli inkişafında əldə etdiyi naliyyətlərlə bilavasitə bağlıdır. Bu reytinqin nəticələrinə görə Azərbaycan iqtisadiyyatında kiçik və orta biznesin dövlət investisiyaları hesabına inkişaf etdirilməsi ölkədə sahibkarlığın inkişafına geniş vüsat verilmişdir.

Beləliklə, intellektual kapitalı sosial və fərdi kapitalların məcmusu kimi, nəzərə alaraq, onun ölkə iqtisadiyyatının, innovativ inkişafına tam uyğun olmasını qeyd etmək olar.

İntellektual kapitalın formalaşdırılması ilə qiymətləndirilməsi baxımından informasiya – bilik, innovativ iqtisadiyyatın qurulması şərtləri üçün kollektivin və cəmiyyətin sosiallaşma dərəcəsini nəzərə almaq lazımdır.

Qeyd etmək lazımdır ki, bilik iqtisadiyyatında internet, verilənlər bazası, telekommunikasiya, mobil, rabitə, bilik və informasiya kimi, inkişaf etmiş infrastruktura əsaslanan innovasiyalar ilə sahibkarlıq fəaliyyəti daha da inkişaf etdirilir. Azərbaycan Respublikasında aparılan uğurlu iqtisadi islahatlar hesabına bu infrastrukturun surətli şəkildə bütün müəssisələrdə yaradılması müşahidə olunur.

Bütün bunlar Azərbaycanda intellektual kapitalın inkişafı hesabına iqtisadiyyatın innovativ inkişafının təmin olunmasında mühüm rol oynamışdır. İntellektual kapital hesabına iqtisadiyyatın bütün sahələri inkişaf etmiş və müsbət keyfiyyət göstəriciləri əldə olunmuşdur. Vurğulamaq lazımdır ki, son dövrlərdə iqtisadiyyatın bütün sahələrində, o cümlədən, xidmət sahəsində də artım müşahidə olunmuşdur. Tədqiqat göstərir ki, intellektual kapitalın inkişafı ölkə

iqtisadiyyatının innovativ inkişafına təsir edərək yeni texnika və texnologiyaların tətbiqi hesabına irəliləyişlər müşahidə olunmuşdur.

Dissertasiya işinin **"Azərbaycanda intellektual kapitalın bazar iqtisadiyyatının innovativ inkişafının ekonometik qiymətləndirilməsi və səmərəliliyin artırılması"** adlanan üçüncü fəslində ölkənin intellektual kapitalını qiymətləndirmə metodları verilmiş, intellektual kapitala təsir edən amillərin ekonometrik qiymətləndirilməsi hesablanmış və biliktutumlu intellektual kapitalın iqtisadi artıma təsirinin qiymətləndirilməsi göstərilmişdir.

Hal-hazırda ölkənin intellektual ehtiyyatlarının qiymətləndirilməsi üçün bir çox metodlar mövcuddur. İntellektual ehtiyyatların qiymətləndirilməsində görkəmli iqtisadçı alim K.E.Seybi xüsusən 42 üsul müəyyənləşdirmişdir. Bu üsulların bəziləri yalnız təşkilat səviyyəsində tətbiq olunur, lakin əksəriyyəti regional səviyyədə istifadə edilə bilər. İntellektual kapitalın qiymətləndirilməsi üsulları toplusunu dörd kateqoriyaya bölmək olar:[4]

1. İntellektual kapitalın birbaşa ölçülməsi metodları (Direct Intellectual Capital methods — DIC). Bu metod intellektual kapitalın ayrı-ayrı komponentlərinin pul dəyərlərindəki eyniləşdirmə və qiymətləndirilməsinə əsaslanır, sonradan isə inteqral qiymətləndirmə aparılır.

2. Bazar kapitallaşması metodları (*Market Capitalization Methods — MCM*) Bu yanaşmalar təşkilati səviyyədə hazırlanmışdır və intellektual kapitalın dəyərini şirkətin bazar kapitallaşması ilə öz kapitalı arasındakı fərqi kimi hesablanır.

3. Aktivlərin gəlirliyini müəyyənləşdirmək üsulları (*Return on Assets methods — ROA).* Müəyyən dövr ərzində şirkətin orta gəlirinin şirkətin maddi aktivlərinə nisbəti bütövlükdə sənaye üçün eyni göstərici ilə müqayisə olunur.

4. Balla qiymətləndirmə metodları (*Scorecard Methods — SC).* Dəyər üzrə nəticələrinin alınması nəzərdə tutulmur. Bu metodların tətbiqi zamanı intellektual kapitalın müxtəlif komponentləri müəyyən edilir, həmçinin amillər və indekslər buraya daxildir.

---

[4] Sveibi, K..E. Methods for Measuring Intangible Assets. URL: articles / IntangibleMethods.htm as of 2013.
http://www3.bus.osaka-cu.ac.jp/apira98/archives/htmls/25.htm80

Hər bir metodun qruplarının öz məhdudiyyətləri vardır. Belə ki, ROA və MSM-nin potensial olaraq etibarlı qiymətləndirmələr verə bilər, lakin şirkətin ayrı-ayrı bölmələri səviyyəsində, həm də qeyri-kommersiya təşkilatlarının və regional səviyyədə tətbiq oluna bilməz. Daha geniş tətbiq sahəsinə sahib olan DIC və SC metodları həmişə obyektiv bir şəkil vermir və nəticələr müqayisə üçün əlverişsiz ola bilər.

Qeyd etmək lazımdır ki, sonralar onun həmkarları tərəfindən bu metod qruplarına aşağıdakı daha bir əlavə 5-ci qrupu da daxil etmişlər.

5. Düzgün ölçmə sistemləri (Proper Measurement Systems - MS). Bu yanaşma birgə ölçmələrin iyerarxiyası konsepsiyasına əsaslanır (Conjoint Value Hierarchy) və ölçülə bilən atributlara bölünməsi ilə təşkilata və ətraf mühitə dəyər parametrlərinin toplanmasını əhatə edir. Belə bir qiymətləndirmə, keyfiyyətə yüksək tələblər qoyan çoxsayda məlumat tələb edir ki, bu da bütün lazımi məlumatları toplamaq mümkün olmadıqda metodun tətbiqini çətinləşdirir .

Qrafik 1-dən istifadə edərək Azərbaycan Respublikasında intellektual kapital üzrə ETİ-nin ümumi dəyərinin proqnoz qiymətlərini də müəyyən etmək olar. MS Excel proqramına əsasən ARDSK-nin məlumatlarından istifadə edərək Azərbaycan Respublikasında intellektual kapital üzrə elmi-tədqiqat işlərinin ümumi dəyərinin gələcək dövr üzrə proqnozlaşdırılması mümkündür bu da bütövlükdə, qrafik 1-də təsvir edilmiş və aşağıdakı nəticəni alarıq.




**Qrafik 1. Azərbaycanda ETİ-nin ümumi dəyərinin 2025-ci ilədək proqnoz qiymətləri**

*Mənbə: Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır*

ETİ-nin ümumi dəyərinin proqnoz qiymətlərini proqnozlaşdırsaq qrafik 1-də təsvir edilmiş aşağıdakı nəticəni alarıq.

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasında intellektual kapital üzrə ümumi məhsul buraxılışının proqnoz qiymətlərinin 2025-ci ilədək artan dinamika ilə inkişaf edəcəkdir.[5]

İqtisadiyyatın qloballaşması şəraitində bilik tutumlu məhsulların sənaye yönümlü inkişaf edən ölkələrə ixracı bütövlükdə, ölkələrarası rəqabətqabiliyyətinin gücləndirilməsinə və münasibətlərin yaxşılaşdırılmasına yönəldilib. Belə ki, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətini qiymətləndirərək burada son nəticə mənfəətin əldə olunması kimi, təşkil edir. Bu baxımdan burada fəaliyyət göstərən kadrların ixtisasının yüksəldilməsinə diqqət yetirərək şirkət və müəssisələrin təsərrüfat fəaliyyətini təhlil edərək mənfəətin əldə olunması, buraya maddi və qeyri-maddi aktivlərin təmsil olunması kimi, məsələlərə baxılması vacib hesab edilir. İntellektual kapital qeyri-maddi aktiv olmaqla, iqtisadi kateqoriya kimi, milli sərvətin digər elementlərinə texnologiyalar, əsas fondlardan ayrıla bilməyən nou-hau, mədəni dəyər formasında da daxildir. Hər bir ölkənin milli sərvətinin strukturunda intellektual kapitalın ən böyük payı olan elementlər qabaqcıl texnologiyalar, fundamental elm, universitet elmi hesab edilir.

Vurğulamaq lazımdır ki, qeyri-maddi aktivlər uğurlu fəaliyyət göstərən şirkətlərin dayanıqlığının təmin olunmasında mühüm rol oynayır. Bu cür aktivlər müəssisələrin prespektivdə dəyərinin formalaşmasında əsas rol oynadığı üçün onun yaranması əhəmiyyət kəsb edir. Qeyri-maddi aktivlər, bütövlükdə, sosial insan kapitalı ilə birgə iqtisadiyyata təsir göstərir və müxtəlif şirkət və korporasiyalarda bu əlaqə fərdi insan kapitalı təşkil edir. Qloballaşan dünya təsərrüfatında qeyri-maddi aktivlərlə zəngin olan müasir firmalar malların deyil, biliklərin istehsalçısıdır. Ümumilikdə, təşkilatlarda səmərəliliyin əldə olunması, ilk növbədə, biliklərin istehsalda reallaşdırılması, geniş kadr təminatının həyata keçirilməsi, tərəfdaşlar ilə qarşılıqlı əlaqənin nəticəsi hesab olunur. Fiziki aktivlərdən və ya

[5] *www.stat.gov.az*

maliyyə kapitalından daha çox intellektual kapital davamlı rəqabət üstünlüyü təşkil edir.



| | 2012 | 2014 | 2015 | 2019 | 2021 | 2023 |
|---|---|---|---|---|---|---|
| Proqram təminatının işlənməsi | 16 800,50 | 27 191,80 | 40 008,10 | 122 548,20 | 98 385,20 | 176 172,70 |
| Hesablama texnikası vasitələri üzrə məsləhətlər | 1 987,10 | 1 711,20 | 3 505,00 | 12 005,30 | 15 355,40 | 23 511,00 |
| Sair məsləhətlər və proqram təminatının göndərilməsi | 2 795,90 | 11 607,20 | 14 431,00 | 12 250,40 | 12 189,30 | 59 677,50 |
| İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət | 219,1 | 133,4 | 850,3 | 1 694,40 | 3 485,20 | 8 493,70 |

**Qrafik 2. Azərbaycan Respublikasında intellektual kapital üzrə iş və xidmətlərin dəyərinin dinamikası, min manatla**

***Mənbə:*** *ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Tədqiqat göstərir ki, bilik tutumlu intellektual kapital üzrə təşkilatı kapitalın tərkibində proqram təminatının işlənməsi üzrə görülmüş iş və xidmətlər 2012-2023-cü illər üzrə dinamikası artmış və inkişaf etmişdir ki, bu da 2023-cü ildə 2012-ci illə müqayisədə 10,5 dəfə artmışdır.[6] COVİD-19 pandemiyasının təsirlərinə baxmayaraq, 2019-cu illə müqayisədə 2023-cü il üzrə proqram təminatının işlənməsi üzrə görülmüş iş və xidmətlərin dəyəri 6,9% artaraq 176,172 milyon manat təşkil etmişdir. Hesablama texnikası vasitələri üzrə məsləhətlər, sair məsləhətlər və İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə görülmüş iş və xidmətlər də təhlil olunan dövr üzrə artmış və bu artan dinamika aydın şəkildə müşahidə edilmişdir.

---

[6] *www.stat.gov.az*

**Dissertasiyanın nəticə bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr yer almışdır:**

- Bu günləri əqli mülkiyyətdən səmərəli istifadə edərək iqtisadiyyatın bütün sahələrində yüksək nailiyyətlər əldə etmək mümkündür. İnsan zəngin kapital olaraq dünya innovativi nkişafının əsas fundamentini təşkil edir. Belə ki, yüksək ixtisaslı kadr hazırlığının, peşəkarlığın artması, biliyin paylaşılması, ümumilikdə, innovativ iqtisadiyyatın sürətli inkişafına təsir göstərir.

Beləliklə, yaxın gələcəkdə innovasiyalı iqtisadiyyatın sürətli inkişafına nail olunması ölkədə intellektual kapitalın artması ilə bağlıdır.

- Tədqiqat göstərir ki, əqli mülkiyyət uzunmüddətli dövrdə ölkənin inkişafına öz təsirini göstərir və əhalinin keyfiyyətli həyat səviyyəsinə nail olmasına imkan yaradır. Belə ki, əqli mülkiyyət, öz növbəsin də, iqtisadiyyat sahələrinin optimal inkişafına şərait yaradır və yüksək texnologiyaların mənimsənilməsinə köməklik göstərir. Ölkə iqtisadiyyatının innovasiyalı inkişafına nail olunması, ilk növbədə, innovativ prosesin tərkib hissəsi olan intellektual kapitaldan asılıdır. Beləliklə, müasir texnologiyanın sürətli artımında intellektual iqtisadiyyatın infrastrukturunun səmərəli fəaliyyəti vacib hesab olunur.

- İntellektual mülkiyyətlə bağlı aparılan fəaliyyətin nəticələrinin tənizmlənməsində dövlətin iştirakı da vacib hesab olunur. Belə ki, bu sahədə mövcud olan hüquqi-normativ bazanın və tənzimləyici mexanizmlərin zərurət yetdikcə təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə bir baxış intellektual mülkiyyətin inkişafı üçün yaradılan mühitin daha da münbitləşdirilməsinə, və bu sahədə aparılan tədqiqatların əhatə dairəsinin genişləndirilməsinə öz müsbət təsirini göstərər.

- Ölkədə intellektual kapitalın inkişafının təmin olunması, ilk növbədə diqqətin artırılmasını tələb edir və bu əsas məsələlərdən biri kimi çıxış edir. Xüsusilə də, elmi-tədqiqat institutlarında o, cümlədən də özəl təşkilatlarda intellektual kapitalın inkişafına mövcud baxışlar dəyişilməlidir. Bu təşkilatlarda çalışan heyətin və əməkdaşlarının intellektual fəaliyyəti sahəsində motivasiyası ilə marağın təmin edilməsi mexanizminin tətbiqi vacibdir. Belə ki, bu elmi

müəssisələrdə çalışan heyətin biliklərinin intellektual mülkiyyətin yaradılmasına yönəldilməsi və biliyin son məhsula (xidmət) uyğunlaşdırılması əsasdır və buna əlverişli şəraitin olması mütləqdir. Hazırda innovativ intellektual fəaliyyətin maliyyələşdirilməsi istiqamətində məqsədli proqramların tərtib olunması, bu prosesdə isə sağlam rəqabət, səmərəlilik, bilik və təcrübənin mütamadi olaraq təkmilləşdirilməsinin həyata keçirilməsi zəruridir.

- Aparılan tədqiqat göstərir ki, təhsil, səhiyyə və mədəniyyət kapitalı intellektual kapitalın əsas komponenti kimi, bir-birilə sıx əlaqədardır. Azərbaycan Respublikasında təhsil xərclərinin 1% artması elmi-tədqiqat işlərinin ümumi dəyərinin 0,25% artmasına, əhalinin sağlamlığına yönəldilmiş səhiyyə xərclərinin 1% artması elmi-tədqiqat işlərinin ümumi dəyərinin 0,42% artmasına, mədəniyyətlə bağlı xərclərin 1% artması elmi-tədqiqat işlərinin ümumi dəyərinin 0,17% artmasına səbəb olmuşdur.

- Beləliklə, Azərbaycanda intellektual kapitalın inkişafı elmi-tədqiqat işlərinə diqqətin gücləndirilməsini tələb edir və ölkədə sosial-iqtisadi inkişafı sürətləndirir. Məhz elmi tədqiqat işlərinə, elmi layihələrə, onların tətbiqi məsələlərinə diqqətin artırılması, bunların tədqiqinə dövlət xərclərinin ayrılması bu fəaliyyət növünü tənzimləyir və mühüm əhəmiyyət kəsb edir. Dövlət isə, öz növbəsində, tənzimləyici rolundan istifadə edərək bazar iqtisadiyyatı şəraitində ölkədə innovativ inkişafa öz təsirini göstərir.

- Tədqiqat göstərir ki, zəif inkişaf etmiş ölkələrdə sosial- iqtisadi inkişafdan geri qalmanın əsas səbəbi insan kapitalı keyfiyyətinin aşağı olmasıdır.

Son illərdə Azərbaycanda islahatların aparılması insan kapitalının formalaşması və onun ölkə iqtisadiyyatında rolunun artırılması istiqamətində işlər davam etdirilir. Bu, ilk növbədə, təhsil sistemində keyfiyyətin yüksəldilməsinin təmin edilməsi və bu sahəyə investisiya qoyuluşlarının artırılması ilə bağlıdır. Hazırda bu istiqamətdə bir sıra dövlət proqramları və konsepsiyalar qəbul olunmuşdur ki, onlardan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və 2013-cü il 24 oktyabr tarixli"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı göstərmək olar.

- Belə qənaətə gəlmək olar ki, Azərbaycanda intellektual kapitalın

inkişafının sürətləndirilməsi, ilk növbədə, sosial sahələrə - təhsilə, elmə, səhiyyəyə, mədəniyyətə xərclərin yüksəldilməsi ilə bağlıdır. Məhz təhsilin keyfiyyətinin yaxşılaşdırılması və elmi-tədqiqat işlərinə investisiya qoyuluşlarının həyata keçirilməsi vacibdir. Bu istiqamətdə islahatların aparılması zəruri hesab olunur.

- Bu günləri iqtisadiyyatının əsasını təşkil edən neft-qaz sənayesində də iqtisadi artım əldə edilmişdir. İntellektual kapitalın inkişafı son dövrlərdə neft-qaz hasilatında istehsalın həcminin artmasına daha çox təsir göstərmişdir. Tədqiqatlar göstərir ki, intellektual kapitalın inkişafı neft və qaz sektorunda, innovativ inkişafa təsir edərək yeni texnika və texnologiyanın tətbiqi hesabına istismar edilən quyularda hasilatın həcmi də artmışdır. Beləliklə, aparılmış tədqiqat hesabına aşağıdakı nəticələri qeyd etmək olar:

- informasiya-bilik sistemi intellektual kapitalın əsas iqtisadi komponentidir;
- bilik iqtisadiyyatının formalaşması şəraitində cəmiyyətin sosiallaşma dərəcəsi nəzərə alınmalıdır;
- intellektual kapitalın strukturuna fərdi və sosial kapitalın cəmi kimi baxmaq olar;
- Azərbaycan Respublikasında intellektualkapitalın inkişafı üçün tələb olunan infrastrukturun inkişaf etməsinə baxmayaraq, onunfəaliyyəti dünya standartlarına uyğunlaşdırılmalıdır.
- Aparılmış tədqiqatda belə bir nəticəyə gəlmək olar ki, strateji inkişaf yönümlü yanaşmalar insan kapitalı konsepsiyasının imkanlarından daha dolğun istifadə etməyə imkan verdiyinə görə Azərbaycan Respublikasının intellektual kapitalını innovativ proseslərin inkişaf amili kimi öyrənmək daha məqsədəuyğun görünür.Bu cür modellər çərçivəsində ümumiyyətlə intellektual kapitalın üçlü quruluşunun daha dərindən ayrılması və müəyyən edilmiş elementlərin vəziyyətinin qiymətləndirilməsi və regional inkişafın hədəflərinin əlaqələndirilməsi vacibdir.Bu baxımdan belə modellər regionda intellektual kapitalın idarə edilməsi praktikası ilə sıx bağlıdır.
- Əhalinin xidmət xərclərinin (təhsil, səhiyyə, mədəniyyət, istirahət və s.) yüksəldilməsi ölkədə intellektual potensialın və insan kapitalının formalaşdırılması və həyat səviyyəsinin yüksəldilməsində mühüm yer tutur. Lakin tədqiqat göstərir ki, qeyd olunan sahələrdə ölkəmizdə

xidmət səviyyəsi elə də qənaətbəxş hesab olunmur, bu da öz növbəsində, həyat keyfiyyətinin yaxşılaşdırılmasına öz mənfitəsirini göstərir.

- İntellektual kapitalın inkişafı ölkə üzrə elmi-tədqiqat işlərinin dəyərini artıraraq iqtisadi inkişafı stimullaşdırır. Elmi-tədqiqat işlərinə təsir edən bir çox amillər vardır ki, bunların içərisində, dövlət büdcəsində təhsil, səhiyyə, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər sahələrdə onların fəaliyyəti ilə bağlı ayrılan xərclər bilavasitə mühüm təsir göstərir.

Çoxluq korrelyasiya əmsalı 0,927 olduğundan, Çeddok şkalasına uyğun olaraq tədqiq olunan göstəricilərin əlaqəsi çox yüksəkdir. Eviews tətbiqi proqram paketinin nəticəsinə görə determinasiya əmsalının $R^2$=0,875 olması isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 87,5% dispersiya nəticə göstəricisi ilə 12,5%-i isə modelə daxil olmayan digər amillərin təsiri nəticəsində izah olunur. Göstərilən reqresiya tənliyinin ilkin verilənləri daha yaxşı ifadə etməsi və intellektual kapital üzrə elmi-tədqiqat işlərinin həcminin 87,5 %-nin modelə daxil olan təhsil, səhiyyə, mədəniyyət xərcləri və ölkəyə idxal olunan İKT məhsullarının hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərir.

**-** Qeyd etmək lazımdır ki, bilik tutumlu intellektual kapital üzrə təşkilatı kapitalın tərkibində proqram təminatının işlənməsi, hesablama texnikası vasitələri üzrə məsləhətlər, sair məsləhətlər və informasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə görülmüş iş və xidmətlər hesabına yaranan əlavə dəyər, ölkə üzrə iqtisadi artımın formalaşmasında mühüm əhəmiyyət kəsb edir. ÜDM və bilik tutumlu intellektual kapital üzrə statistik məlumatlara uyğun olaraq onların arasındakı asılılığı reqressiya təhlilinin aparılmaqla qiymətləndirmə aparmaq olar.

-Aparılmış hesablamalar göstərir ki, bilik tutumlu intellektual kapitalın 1% artması Azərbaycanda ÜDM-in 0,00082% artmasına səbəb olur.

**Dissertasiya işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Şahsuvarlı, M.X. İntellektual kapitalın tədqiqinin əhəmiyyəti // – Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2018, – № 6. – s. 210-217.

2. Şahsuvarlı M.X. Müasir dövrdə intellektual kapitala baxışlar və inkişaf xüsusiyyətləri // – Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2019, – №5. – s. 19-26.

3. Şahsuvarlı M.X. İntellektual kapitalın inkişafı xarici ölkələrin təcrübəsində // – Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 2019, – № 6. – s. 183-188.

4. Şahsuvarlı M.X. İntellektual kapitalın innovativ inkişafda əhəmiyyəti // – Bakı: XXI əsrdə beynəlxalq iqtisadi münasibətlərin prioritet istiqamətləri mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Azərbaycan Turizm və Menecment Universiteti, 2020. – s. 135-137.

5. Sultanova R.P., Şahsuvarlı M.X. "İntellektual kapitalın qiymətləndirmə metodları" // – Naxçıvan: "Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" mövzusunda Respublika Elmi Konfransı. Azərbaycan Respublikası Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti, 2020, – s. 217-221.

6. Şahsuvarlı M.X. İntellektual kapitala təsir edən amillərin qiymətləndirilməsi // – Bakı: Müasir dövrdə effektiv idarəetmənin problemləri mövzusunda elmi-praktiki konfrans. Azərbaycan Turizm və Menecment Universiteti, 2021. – s. 155-159.

7. Şahsuvarlı M.X. İntellektual kapital sosial-iqtisadi inkişafın əsas prioriteti kimi // – Bakı: "Kooperasiya" elmi-praktik jurnal, 2023, – № 1. (68). – s. 142-147

8. Шахсуварлы, M.X. Education, health and cultural capital as main components of intellectual capital // – Poland: Коллоквиум, журнал научных публикаций, 2022, – № 4, – стр. 66-70.

9. Shahsuvarlı, M.X.Assesing the impact of intellectual capital on economic growth // – Bulgaria: VI Internatıonal Scientific Conference "Mathematical Modeling", 2022. – pp. 47-49.

Dissertasiyanın müdafiəsi 23 oktyabr 2024-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın electron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 21 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.09.2024-cü il

Kağızınformatı: 60 x 84 1/16

Həcm: 45578 işarə

Tiraj: 100